# Rayon müəllimlərinin sentyabr konfransı

## Çıxışlar

### Fəttah Heydərov, Milli Məclisin üzvü, respublika Ağsaqqallar Şurasının sədri

**Əziz müəllimlər, məzunlar!**
**Hörmətli Səbuhi Abdullayev!**

Sizin hamınızı salamlayır, yeni dərs ilində rayon təhsil şöbəsinə və müəllimlərə məsuliyyətli və şərəfli işlərində böyük uğurlar arzulayıram.

Biz sizinlə artıq uzun bir yol gəlmişik. 18 ildir ki, yeni dərs ilini sizlərlə bir yerdə qarşılayırıq. Bu gün orta məktəbi bitirən gənc o vaxtlar yenicə doğulmuşdu. Həmçinin salona baxanda o vaxtlar da işləyən müəllimlərin tanış üzlərini görürəm, onlar artıq ağsaqqal insanlardır. Elə bu andaca ilk illər gözlərimin qabağına gəlir. O illər indiki illərlə müqayisədə çox fərqli illər idi. Azərbaycan, o cümlədən Qəbələ ötən 18 il ərzində çox dəyişib, tərəqqiyə doğru inkişaf edib. İndi yaşadığımız illər o zamanların insanları üçün yalnız möcüzə kimi görünə bilərdi.

Azərbaycan hazırda milli gəlirin inkişaf tempinə görə dünyanın lider dövlətinə çevrilib. Dünyanı qlobal böhran bürüdüyü halda bu böhran Azərbaycandan yan keçib. Bəs bu nəticələrin əldə olunması hansı səbəbdəndir? Bunları təkrar-təkrar olsa da yenidən izah etməyi özümə borc bilirəm.

22 il bundan əvvəl sovetlər ittifaqı dağıldı, bu ittifaqa daxil olan 15 respublika müstəqillik əldə etdi. Lakin onların arasında Azərbaycanın başına gələn müsibətlər, ağrı-acılar digər ölkələrin heç birinin başına gəlməmişdir. Heç bir ölkənin sərhədləri pozulmamış, torpaqları işğal olunmamış, bir milyon əhalisi yurd-yuvasından didərgin düşməmiş, 20 min əhalisi şəhid olmamış, 30-40 mini əlil qalmamışdır. Ermənilərsə Azərbaycanın başına bu müsibətləri gətirdilər. Səbəbi isə aydın idi. O vaxtlar Azərbaycana səriştəsiz, dövlətçilikdə təcrübəsi olmayan şəxslər rəhbərlik edirdi, respublika ağsaqqalsız, ölüm və ya dirim dileması qarşısında qalmışdı. Bu müsibətlərə isə Heydər Əliyevin Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıtması ilə son qoyuldu. Məhz hazırki inkişaf, tərəqqi, irəliləyiş Heydər Əliyev yoludur. Bizim hamımızın ancaq bir yolumuz var, bu yol Heydər Əliyev yoludur. Bu yol respublikamızın uzaqgörən, təşəbbüskar, bacarıqlı və qətiyyətli Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında davam edir. Bu yolda onunla və sizlərlə birlikdə yeni-yeni uğurlara doğru addımlayırıq.



Uğurlardan indi burada çox danışıldı. Bu uğurlar olsa da lakin məcburi köçkünlərimizi, qaçqınlarımızı doğma yurd-yuvalarına qaytara bilməmişik. Uğurlar nə qədər çox olsa da indiyədək həll edilməyən bu problemdən nəticə çıxarmalıyıq. Hər bir məktəbdə müəllimlərimiz müxtəlif fənlərin tədrisi zamanı mütəmmadi olaraq şagirdlərimizi baş verənlər haqqında məlumatlandırmalı, onlar doğma Azərbaycan naminə, onun müstəqilliyinin qorunması naminə əsl vətənpərvər kimi yetişdirilməlidirlər. Gənclərimizə, şagirdlərimizə Heydər Əluiyev yolu öyrədilməlidir. Biz yalnız bundan sonra qazanılan, əldə olunan uğurları davam etdirə, möhkəmləndirə bilərik.

Burada qeyd olundu ki, Qəbələ təhsili digər sahələr kimi sürətlə inkişaf edir. Mən də çox yaxşı təəssüratla bu tədbirdən ayrılıram. Zalda bu ağır və şərəfli yükü zəif çiyinlərində daşıyanların çoxunun qadınlar olduğunu görürəm. Bu qadınlarımızın hamısına eşq olsun, onlara yeni uğurlar arzulayıram. Bu salonda kişi müəllimlər də var. Onların da zəhməti az deyildir. Onlar da alqışa layiqdirlər.

Qarşıdan Prezident seçkiləri gəlir. Bu siyasi kampaniyadır, çox məsuliyyətli bir kampaniyadır. İnanıram ki, Qəbələ ziyalıları əvvəlki seçkilərdə olduğu kimi yenə bu seçkiləri də uğurla başa vuracaqlar.

Bir daha qarşıdakı şərəfli işlərinizdə hamınıza uğurlar, yeni-yeni müvəffəqiyyətlər arzu edirəm.

### Səbuhi Abdullayev, Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı

**Hörmətli qonaqlar!**
**Hörmətli konfrans iştirakçıları!**

Sizin hər birinizi və sizin timsalınızda Qəbələ rayonunun bütün təhsil işçilərini müəllimlərin ənənəvi sentyabr konfransı münasibəti ilə ürəkdən təbrik edir, işlərinizdə müvəffəqiyyətlər arzulayıram.

Müstəqil Azərbaycanın ictimai, iqtisadi, mədəni həyatı sürətlə dəyişir, bütün sahələrdə başlanılmış islahatlar ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilir. Müasir təhsil texnologiyalarının öyrənilməsi, ümumiləşdirilərək milli zəmində inkişaf etdirilməsi, ümumi təhsilin məzmunu, təhsilin hümanistləşdirilməsi və demokratikləşdirilməsi sahəsində yüksək nailiyyətlər əldə olunur.

Bu gün ölkəmizin hər yerində olduğu kimi Qəbələ rayonunda da təhsil sistemi inkişaf yolundadır. Artıq neçə illərdir ki, təhsilin zəruri hüquqi bazası yaradılmış, məzmunu və strukturunda müasir tələblərə uyğun dəyişikliklərin aparılması istiqamətində səmərəli işlər görülmüşdür.

Şəxsiyyətin inkişafını təmin edən müasir təhsilin qurulmasında təlim standartları hər bir təhsil işçisindən, xüsusən də müəllimlərdən fəaliyyətlərini konkret və aydın məqsəd ətrafında qurmağı tələb edir. Ona görə də konfransda müəllimlərin tematik və gündəlik planlaşdırma bacarıqlarının inkişaf etdirilməsi ilə bağlı praktik işlərin təşkili də gündəmdə dayanmalı və geniş müzakirə edilməlidir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 21 avqust 2004-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları təminatı Proqramı" ölkəmizdə yeni informasiya texnologiyalarından istifadə olunmaqla təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edən, dünya təhsil sisteminə inteqrasiya imkanı verən vahid təhsil informasiya mühitini yaratmaq və məktəbliləri informasiya cəmiyyətinə hazırlamaq məqsədi daşıyır.

Dövlət başçısının 15 yanvar 2013-cü il tarixli sərəncamı ilə 2013-cü il "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan edilmişdir. Bu yönümdə xeyli işlərin görülmüşdür. Lakin görülmüş işlərlə kifayətlənmək olmaz. Bu şəbəkəni daha da genişləndirmək lazımdır.

Diqqət yetiriləcək əsas hədəflərdən biri də ölkəmizdə gənclər arasında idmanın kütləvi inkişaf etdirilməsi, Olimpiya hərəkatının genişləndirilməsi, yeniyetmələrin müntəzəm şəkildə idmana cəlb olunması, əhalinin bütün təbəqələri arasında sağlam həyat tərzinin formalaşdırılması, eləcə də idmançılarımızın beynəlxalq yarışlarda yüksək göstəricilər əldə etməsinə nail olmaqdır. Bildiyiniz kimi, bədən tərbiyəsinin və idmanın inkişaf etdirilməsi ilə bağlı rayonumuzda möhtəşəm idman kompleksləri tikilərək əhalinin istifadəsinə verilmişdir.



İdmanın kütləvi xarakter alması və daha da inkişaf etdirilməsi istiqamətində ümumtəhsil məktəblərinin də üzərinə çox böyük vəzifələr düşür.

**Hörmətli konfrans iştirakçıları!**

Azərbaycan xalqı gələcəyimiz olan gənc nəslin vətənə məhəbbət, xalqa, el-obasına hörmət, milli adət-ənənələrinə sədaqət ruhunda tərbiyə olunmasına həmişə böyük məsuliyyətlə yanaşmış və buna həyati əhəmiyyətli məsələ kimi baxmışdır. Biz şanlı tariximizlə, əfsanəvi qəhrəmanlarımızla həmişə fəxr etmişik. Və bu xalq öz vətənini göz bəbəyi kimi qorumağa hazır olan mətin gənclər yetişdirmişdir. Qarabağ savaşında həlak olmuş qəhrəmanlarımızın ibrətamiz həyatı, şəxsi nümunəsi buna canlı misaldır. Gənclərdə hərbi-vətənpərvərlik tərbiyəsini o zaman daha yaxşı aşılamaq mümkündür ki, ümumtəhsil məktəblərində oxuyan şagirdlərə ayrı-ayrı fənlərlə yanaşı ilkin hərbi hazırlıq təlimlərinin tədrisinə ciddi diqqət yetirilsin.

Ümumtəhsil məktəblərində ulu öndərin azərbaycançılıq məfkurəsinin geniş təbliğ edilməsinə və öyrənilməsinə diqqət daha da artırılmalıdır. Heydər Əliyev elə bir şəxsiyyət, elə bir liderdir ki, onun irsinin öyrənilməsi və təbliği ümumdövlət, ümumxalq işinin ali məqsədi olmalıdır. Gənc nəsli, uşaq və yeniyetmələri milli, mənəvi, əxlaqi dəyərlərimizə sevgi ruhunda tərbiyə etmək üçün biz daim Heydər Əliyev şəxsiyyətinə müraciət etməli və bu dahi insanın həyatının milli örnək kimi uşaq və yeniyetmələr arasında təbliğ olunmasına çalışmalıyıq.

**Hörmətli konfrans iştirakçıları!**

Bu gün dövlət qayğısı ilə əhatə olunmuş Azərbaycan təhsilinin uğurlarının günü-gündən artmasının, inkişaf etməsinin və dünya təhsilinə inteqrasiyasının təməlində ümummilli liderimiz Heydər Əliyev tərəfindən müəyyən edilmiş siyasi kurs və bu kursun Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi durur. Cənab İlham Əliyevin dəfələrlə səsləndirdiyi "Təhsil Azərbaycanın davamlı inkişaf strategiyasının ən öncül istiqamətlərindən biridir"—fikri təhsilin dövlət siyasətinin mərkəzi subyekti olduğunu təsdiq edir. Respublikamızda, eləcə də rayonumuzda geniş vüsət almış yeni məktəblərin, uşaq bağçalarının tikintisi, onların müasir avadanlıqlarla, informasiya-kommunikasiya vasitələri ilə təchizi, yeni dərsliklərin, tədris vəsaitlərinin pulsuz olaraq şagirdlərə çatdırılması, yeni təlim texnologiyalarının tətbiqi və s. bu kimi tədbirlər milli təhsilimizin möhkəm təməllər əsasında qurulduğundan və düzgün inkişafından xəbər verir.

**Hörmətli konfrans iştirakçıları, hörmətli müəllimlər!**

Fürsətdən istifadə edərək mən sizləri qarşıdan gələn yeni dərs ili və "Bilik günü" bayramı münasibəti ilə də təbrik edir, sizə işlərinizdə uğurlar və ən başlıcası cansağlığı arzulayıram!